# Üzümçülük və şərabçılıqda itirilmiş şöhrət bərpa edilir

(Əvvəli 5-ci səhifədə).

2013-cü il 28 fevral tarixində Prezident müəssisənin şərab istehsal olunan sahələri, qablaşdırma sexinin texnologiyası ilə tanış olmuş, bu kollektivə dövlət başçısı uğurlar arzulamış, müvafiq tapşırıq və tövsiyyələrini vermişdir. Zavod İtaliyanın ən məşhur şirkətlərindən biri olan «Della TOFFOLA» şirkətinin avadanlıqları ilə təchiz olunub. Müəssisənin ilk emal gücü 1000 tondur. Zavodda üzümün qəbulundan, sıxılmasından tutmuş onun istehsalına, çaxırın ayrılmasına, qablaşdırılmasına kimi bütün proseslər əl dəymədən, itkisiz, tullantısız aparılır. Ən yaxşı haldır ki, hasil olunan şərabların Fransadan və İtaliyadan alınan yüksək keyfiyyətli palıd ağacından hazırlanmış çəlləklərdə və çənlərdə saxlanılır.

Şərab anbarında ciddi şəkildə müəyyənləşdirilmiş temperatur, rütubət və işıqlandırma, zəruri mikromühit mövcuddur. Zavodda 2014-cü ildə 500 tondan yuxarı şərab xammalı istehsal olunmuşdur. Hazırda müəssisədə mövsümü işləədaqədar 200 nəfər mütəxəssis və fəhlə çalışır, onların əksəriyyəti gənclərdir. Burada hazırda 16 növ şərab emal olunur. Ötən il müəssisədə il boyu 100.000-ə yaxın şərti butulka istehsal edilmişdir. Emal olunan şərab məhsulları Rusiyaya və Avropa ölkələrinə ixrac olunur.

Qış aylarında "ASPİ AQRO" MMC-də 20 nəfər daimi işçi çalışır. Lakin ting əkini, becərmə, məhsul yığımı ilə əlaqədar üzümçülük birlikyində 200 nəfər mövsümi işlə təmin edilir. Üzümçülük sahəsində işləyənlər yaxşı əməkhaqqı alır və onlara hər cür kommunal və sosial şərait yaradılmışdır. Cəmiyyətin texnika, elektrik enerjisi və sudan çətinlikləri yoxdur. Burada üzümçülüyün inkişafına geniş imkanlar yaradılıb, şəraitdən mütəxəssis və fəhlələr razılıq edirlər. Üzümçülüyün inkişafından və zavodda xammalın emal olunmasından söhbət düşəndə təcrübəli direktor Əjdər Şəfizadə dedi ki, gələcək planlarımız daha genişdir. Üzümçülüyün inkişafına, emal olunmasına cənab Prezident İlham Əliyev daim diqqət edir. Onun bölgələrə etdiyi səfərlər üzümçülüyün prioritet sahə olduğunu xatırlatmış və bu sahənin inkişafına xüsusi diqqət yetirmək zərurətini vurğulamışdır. Bundan əlavə cənab prezidentin 2011-ci il 15 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" üzümçülük və şərabçılıqla məşğul olanların qarşısında geniş üfüqlər açmışdır. Biz, bu mühüm Dövlət Proqramına əsasən 2020-ci ilədək əhalinin təzə və keyfiyyətli süfrə üzümünə olan tələbatını yüksək səviyyədə ödənilməsini, üzüm emalı müəssisəsinin xammal məhsulu hesabına yaxşılaşdırılmasını təmin etməyə çalışırıq. Eyni zamanda bu mühüm fəaliyyət sənədində nəzərdə tutulan yeni üzüm bağlarının salınmasına, mövcud bağların elmi əsaslarla bar vermə qabiliyyətinin yüksəldilməsinə, istehsalın keyfiyyətinə xüsusi əhəmiyyət veriləcəkdir. Bundan əlavə üzüm plantasiyalarında əkin-becərmə və məhsul toplanışında istifadə üçün nəzərdə tutulmuş texnika, maşın və avadanlıqlarla təchiz edilməsinə və burada əl əməyinin aradan qaldırılmasına üstünlük veriləcəkdir.

Öyrəndik ki, "ASPİ Winery" üzüm emalı zavodunda istehsal olunan məhsul yüksək keyfiyyətinə, ekoloji təmizliyinə görə həm ölkə daxilində, həm də ölkədən xaricdə məşhurlaşmış, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bir neçə dəfə yüksək qiymətləndirilmişdir. Məsələn 2014-cü ilin oktyabr ayında Gəncə şəhərində Fransadan, Almaniyadan, İtaliyadan, Türkiyədən, Rusiyadan, Maldovadan, Gürcüstandan gələn qonaqların iştirakı ilə keçirilən "Beynəlxalq şərab festivalı"nda Qəbələ "ASPİ Winery" üzüm emalı zavodunun istehsal etdiyi "Savalan" brendi ilə istehsal olunan şərablar birinci yeri tutduğu üçün ən yüksək «Qran-Pri» mükafata layiq görülüb.

Bütün bu uğurlar üzümçüləri arxayınlaşdırmır. Onlar gələcəkdə üzümlüklərdə bol, keyfiyyətli və dadlı məhsul yetişdirmək məqsədilə səylərini ilbəil artırır. Elə buna görə də onların səyləri nəticəsiz qalmır və sahələrdə bol məhsul yetişir və onu itkisiz toplayaraq ticarət mərkəzlərinə, istehsal müəssisəsinə yola salırlar.

Hazırda burada bağlardan yetişmiş üzüm yığımına başlanmışdır. Yığım ustaları gündəlik iş normasını artıqlaması ilə yerinə yetirirlər. Üzümçülər bu yığım mövsümündə 1000 tondan artıq üzüm yığmaq uğrunda mübarizə aparırlar. Bu mübarizənin önündə Dəmir Məlikovun, İnşallah Seyidovun, Ayaz Maqsudovun və başqa briqadaların yığım ustaları irəlidə gedirlər. Bağlardan üzüm yığımı sürətlə davam edir və bu kampaniya qısa müddətdə başa çatdırılacaqdır.

Bir sözlə, vaxtilə Qəbələ diyarına şan-şöhrət gətirən, amma müstəqilliyimizin ilk illərində bəzi səhlənkar insanların təqsiri ucbatından əsassız dağıdılaraq viran edilmiş üzümçülüyü bərpa etməyi lazım bilən "ASPİ AQRO" MMC-nin işgüzar kollektivi bu qiymətli sərvətin itirilmiş şöhrətini qaytarır.

**Aslan CƏLİLOV.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**7 sentyabr:** Görkəmli ədəbiyyatşünas və teatrşünas alim, sənətşünaslıq doktoru **Cəfər Cəfərov** (1914—1973) anadan olmuşdur. "Ədəbiyyat qəzeti"ndə, Yazıçılar İttifaqında, "Pravda" qəzetində (Azərbaycan üzrə müxbir), Akademik Dram Teatrında (bədii hissə müdiri), "Bakı" kinostudiyasında işləmiş, Azərbaycan KP MK-da katib olmuşdur. Elmi-tədqiqat əsərləri yazmışdır.

**8 sentyabr:** Dağıstanın xalq şairi, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı **Rəsul Həmzətov** (1923—2003) anadan olmuşdur. SSRİ Dövlət və Lenin mükafatları laureatı idi, 6—11-ci çağırışlarda SSRİ Ali Sovetinin deputatı seçilmişdir. Zəngin yaradıcılığı var, vətənpərvərlik və xəlqilik ruhlu əsərlər yazmışdır.

**9 sentyabr:** Əməkdar elm xadimi, tibb elmləri doktoru **Adilə Namazova** 1926-cı ildə dünyaya gəlmişdir. Azərbaycan Tibb Universitetində pediatriya kafedrasının müdiri olub.

Məşhur rus yazıçısı **Lev Tolstoy** (1828—1910) anadan olmuşdur. Onun yaradıcılığı XIX əsr dünya realist nəsrinin zirvəsi sayılır. Bir çox romanları və povestləri dilimizə tərcümə olunmuşdur.

**11 sentyabr:** Xalq artisti, kinorejisor və operator **Muxtar Dadaşov** (1913—1998) anadan olmuşdur. Sənədli filmləri çoxdur. "Qanun naminə", "Bakıda küləklər əsir" və başqa bədii filmləri çəkmişdir. Bir sıra filmlərin ssenarisini də özü yazmışdır.

**12 sentyabr:** Realist ədəbiyyatın görkəmli nümayəndəsi olan yazıçı **Yusif Vəzir Çəmənzəminli** (1887—1943) Şuşada anadan olmuşdur. Kiyevdə ali hüquq təsili almışdır. Bir müddət Rusiyada, 1919—1925-ci illərdə Türkiyədə yaşamış, 1931—1940-cı illərdə Özbəkistanda Ürgənc Pedaqoji İnstitutunda işləmişdir.

Publisistik yazıları, hekayələri, "Qızlar bulağı", "Qan içində" romanları vardır.

**13 sentyabr:** Xalq artisti, professor, bəstəkar **Arif Məlikov** 1933-cü ildə anadan olmuşdur. Onun «Məhəbbət əfsanəsi» baleti məşhurdur və bir sıra teatrlarda tamaşaya qoyulmuşdur. Romanslar, simfonik poemalar, kinofilmlərə və dram tamaşalarına musiqi yazmışdır. Musiqi Akademiyasında dərs deyir.

# Qəbələ qalası

**A**zərbaycanın tarixi qalaları içərisində Qəbələ qalasının tarixi daha da qədimdir. Həmin dövrün güclü müdafiəsi, tariximizin canlı şahidi olan bu qalalar bu günümüzün möhtəşəm abidələridir. Tariximizin yaşaması, gələcəyə doğru yollarda addımlaması üçün belə tarixi qalalarımızın qorunması, öyrənilməsi həm bir vəzifə borcu, həm də fəxrimizdir.

Qəbələ qalası tarixi baxımdan ən möhtəşəm və qədim mənbələrdə adı iftixarla çəkilən ən güclü müdafiə qalasıdır. Tarixi məlumatlara görə bu qala həm əzəməti ilə, həm də öz dövrünə görə möhtəşəm tikili kimi birinci yerdə olmuşdur. Yer səviyyəsinə görə 5-12 metr, eni isə 5 metr olan bu qala bu gün də tariximizi yaşadır.

Azərbaycan ərazisində olan qalalar içərisində Qəbələ qalasının tikilmə texnikası, material zənginliyi daha diqqət çəkəndir.

Qalaların tarixi təbliğatı, öyrənilməsi, gələcək nəsillər üçün qorunması baxımından Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində bir çox tədbirlər həyata keçirilir. Bu məqsədlə 1 sentyabr 2015-ci il tarixində muzeydə dəyirmi masa təşkil edilmişdir. Dəyirmi masada bu qalanın dövlətimiz tərəfindən güclü surətdə qorunması, yenidən araşdırılması haqqında geniş söhbət açıldı.

Qeyd edək ki, rayonumuza gələn bütün xarici turistlər bu qalanın möhtəşəmliyi haqqında öz ürək sözlərini muzeyimizin rəy kitabına qeyd edirlər. Muzeyin direktoru Xalis Məmmədov 1980-ci illər ərizində çəkdiyi foto-materiallardan və digər nümunələrdən ibarət kiçik bir ekspozisiya təşkil etmişdir. Bu materiallara diqqət yetirdikdən sonra görürük ki, bu qalalar tariximizdə nə qədər böyük rol oynamışdır və bundan sonra da əsrlərlə diqqəti cəlb edəcəkdir.

**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**